Höte - bu, başqa məsələdi. Çox gözəl insandı. O, eyni zamanda həm Ariostodu və həm də Almaniya üçün, demək olar ki, Volterdi.

## Gündəlik

# "Mən heç Şekspirin ayaqqabısının ipini də bağlamağa layiq deyiləm!.."



**Valter SKOTT**

*İxtisarla*

*Əvvəli ötən sayımızda*

*14 aprel*

...Məşhur Denis Davudovdan - Qara Kapitandan məktub aldım. O, Moskvadan geri çəkilərkən partizan müharibəsində çox fərqlənirdi. Ondan bir neçə hadisənin tarixçəsini qopara bilsəydim, özüm üçün bunu əla bir qənimət sayardım!..

*4 iyun*

İnsanlar həmişə işdə ardıcıl sistemlilik haqqında hay-küy salırlar və həqiqətən bu üsul bəzən işgüzar olanlara kifayət qədər fayda və böyük üstünlüklər verir; amma məncə, metodiki üsula üstünlük verən, qələmini təyin etdiyi saatda əlinə götürən və ya yerə qoyan yazıçılar kifayət qədər miskin varlıqlardı. Xanım Luiza Styuart mənə danışmışdı ki, Tasso və Ariostonun tərcüməçisi, necə deyərlər, qızılı qurğuşuna çevirmək ustası, Ost-Hind kampaniyasında idarə xidmətçisi işləyən cənab Xul, qırcıvalı uzun manjet və tütün rəngli kostyum geyirmiş, hərdən atasına baş çəkmək üçün onlara gəlirmiş. O, deyəndə ki, nə az, nə çox - hər gün eyni sayda beyt işləyir, bu, Luizanın marağına səbəb olub; deməli, o, buna vərdiş edibmiş və onun üçün asan imiş, əvəzində isə, oxucu zülm çəkirdi...

*16 iyun*

Dünən iki qravüra hədiyyə almışam: bunları Henri Rebern özünün çəkdiyi, həm də, sözsüz ki, pis alınmamış portretim əsasında işləyib (zavallı!). Mən bu qravüralardan birini 1812-ci il hadisələrinin məşhur Qara Kapitanı - gənc cənab Davudova dayısına çatdırmaq üçün verdim və bundan məmnunluq hissi keçirdim.

Maraqlıdı ki, o, tamam başqa sahədə məşhurluq qazanmış bir insanın rəsmini istəmişdi. Məncə, poeziyamda və ya nəsrimdə yaxşı olan hər şey, bilavasitə, əsgərlərin və dənizçilərin, qətiyyətli cavanların xoşladığı səmimiyyətdi. Mən budaqların kölgəsinə qısılmış nə bir aşiq, nə də:

"Yazda qamışlıqda səslənən
Zərif-zərif nəğmələrin" - müəllifi deyiləm.

*29 sentyabr*

...Beş səhifə yazdım - demək olar ki, öhdəliyimi ikiqat yerinə yetirdim, hərçənd bağ-bağçanı seyrəkləşdirmək üçün əlimdə balta üç saat əlləşmişəm. Bu da xeyirlidi. Hiss edirəm ki, qəlbimə sabitlik verir. Deyirlər, qadınlar kişilərdən kifayət qədər daha az dəli olurlar. Əgər doğrudan da belədirsə, bu, ondan irəli gəlir ki, qadınlar daim xırda əl işləriylə məşğuldular, bu isə, divar saatının hərəkətini kəfkir nizamladığı kimi müəyyən dərəcədə onların düşüncə axınını yönləndirir. Bilmirəm, haqlıyam ya yox, amma düşünürəm gəzməkdən və ya nəyləsə məşğul olmaqdan təcrid edilərək təkadamlıq kamerada məhbus olsaydım, dəliyə dönməyimə, yaxud gicə çevrilməyimə altıca ay bəs edərdi.

*18 oktyabr*

Məni təqlid edənlərlə bağlı qeydlərimlə yenidən məşğul olmağa başlamışam. Bu cənabları təqlidçi adlandırmağım, inanıram ki, qəlblərinə dəyməyəcək və yazılanları yaxşıca izləmələrini ürəkdən arzulayıram; bu isə mənə bir güzgü kimi səhvlərimi, əgər belə demək mümkünsə, üslub səhvlərimi üzə çıxarmaqda kömək edər. Onsuz da onlardan bircə üstünlüyüm olduğunu güman edirəm: belə ki, onlar özünü nəvazişlə, incə şəkildə gicliyə qoyurlar, mən isə Endryu Eqyuçik kimi təbii olaraq. Biliklərini artırmaq üçün onlara köhnə kitabları oxumaq, qədim kolleksiyalardan baş açmaq, güclü axtarıb-aramaq gərəkdi, mənsə o kitabları çoxdan oxuduğuma və güclü yaddaşa malik olduğuma görə yazıram. Nəticədə onların qələmə aldıqları tarixi detallar tükdən asılı qalır, süjetin inkişafıyla düz gəlməyən geniş təsvirlər isə oxucu marağını öldürür. Bəlkə də günah özümdədi; həqiqətən də, Beys demişkən, məndən ötrü süjet - kitabı maraqlı şeylərlə doldurmaqdan ibarətdi; təsvirə münasibətdə süjet sanki bir kuklaoynadan əlində ipdi və onun köməyi ilə kralları, kraliçaları, Vaterlo yanındakı döyüşü,

qaçıb daldalanmaq üçün özümüzə yuvalar, mağaralar axtarardıq! Etdikləri möhtəkirliyin necə iflasa uğradığını gözləyən xəyalpərəstin təlaşını, şəhvətpərəstin başına gələn sərgüzəşti necə lənətlədiyini,

Bonapartın müqəddəs Yelena adasındakı savaşını, Nyumarketdəki cıdırı və Cemminin qovaraq şəhərdən çıxardığı Ağbaş Bobu dartır, qaldırır və nümayiş etdirirəm. Bütün bunları, əlbəttə, etmişəm, əvəzində isə sonra peşman olmuşam. Tarixi şəxsiyyətlərin vasitəsilə hadisələrin inkişaf etdiyi ən yaxşı əsərlərimdə isə, onları mümkün qədər sıx təmasda verməmişəm, bundan sonra da bu işə böyük diqqət yetirəcəm. Fon əsas fiqurlara kölgə salmamalı, çərçivə isə rəsm əsərini sıxmamalıdı.

Digər üstünlüyüm: müasirlərim həddən artıq açıq-aşkar oğurlayırlar. Cənab Smit "Brembltayhauz"da Defonun "Londonda yanğın və vəba"sından bir neçə səhifə yerləşdirib.

"Oğurlamaq!" - Tfu! Alçaq sözdü bu!

Müdriklərsə deyər "bacarıqdı" bu!

Mən hansısa bir epizodu və ya buna bənzər nələrisə "bacarıb" yazıma gətirəndə, izləri bütünlüklə elə itirməyə cəhd göstərirəm, sanki bundan ötrü məni Old-Beyldə cinayət məsuliyyətinə cəlb edəcəklər.

Amma bu təqlidçilərin ucbatından belə şeylər onsuz da zəhləmi tökür, məni hər tərəfdən elə sıxışdırır ki, bezmiş bir tülkü kimi bütün təqibçilərimi azdırmaq üsulu axtarıram, çalışıram yeni hiylələr qurum, külək qoxumu başqa səmtə aparsın, izim itsin.

Əlbəttə, yeniliyə nail olmaq üçün də vasitə var: məharətlə qurulmuş maraqlı fabulada uğurun əsasını qoymaq olur. Amma bədbəxt canım! Bundan ötrü düşüncə lazımdı, fikir lazımdı, ciddi işlənmiş plan üzrə yazmaq gərəkdi, mənsə o cür bacarmıram, çünki yazanda epizodlar əvvəlcədən nəzərdə tutulmuş tərəfə deyil, tamamilə qeyri-bərabər şəkildə başqa səmtə üz tutub genişlənir, - lənət şeytana! - mən onu axıra qədər heç vaxt düşünüb tapa bilmərəm. Bununla belə mən bütün təqlidçiləri ötüb keçməklə dünyanı heyrətə sala bilərəm! Biz hələ özümüzü göstərəcəyik.

Azadlıq uğrunda döyüşə girəcəyik.

Ya ölüm, ya qələbə!..

*12 noyabr*

Şükürlər olsun ki, düşüncələrimiz gözlə görünmür, heç kimin onlara əli çatmır. Aşkarda olsaydı, hər kəsin qəlbində nələr baş verdiyini görərdik, insan icmalarından simicin itirdiyi qızıl pula görə ürəyini necə üzdüyünü, hər şeyi, hər şeyi - boş-boş ümidlərə qapılanları və təəssüf edənləri görə bilərdik! İnsanların ürəyinin qara pərdələr arxasında necə oda atıldığını seyr etmək üçün bizə Vatekin arxasınca cəhənnəmə getmək lazım olmazdı. Rəbbim, bizi yolumuzu azmaqdan qoru, çünki heç vaxt özümüz özümüzün yolgöstərəni ola bilmərik!..

*20 noyabr*

... Maliyyədən danışanda, qeyd etməliyəm ki, səyahət xərclərim çox artıb. Mən artıq yoxsulluqla barışmaq, özümü qısaraq əlli funta qənaət etmək üçün kifayət qədər qocalmışam. Əvəzində ruhumdakı yenilikləri, yeni düşüncələrimi, məqsəd və baxışlarımı həmişə qənaətlə xərcləmişəm. Hər iki paytaxta səfər edərəkən ürəyimə yatmış bir çox məsələlərə görə özümə hörmətim artıb (bu isə, güman ki, səbəbsiz deyil) və özümü indi daha inamlı hiss edirəm. Artıq Şotlandiyada işləyəsi və iqtisadiyyatı yönləndirəsi olacam.

*Yenidən ədəbi reputasiyamın düşməsinin mümkünlüyü haqda düşünüb-daşındım. Tənqidə və tərifə o qədər biganəyəm ki, məni özümə qapılmağa vadar edə biləcək böyük uğurlarım heç vaxt təkəbbür doğurub gözümü kor etməyib.*

*11 dekabr*

...Qoy sənin şöhrətin davamlı olsun və ruhun bu dünyada dinclik tapsın, Rob Berns! (Robert Berns (1759-1796) - Şotland şairi, folklorşünas. - tərc.) Məni bürüyən hissləri bəyan etmək istəyəndə, lazım olan sözləri ya Şekspirdə tapıram, ya da səndə. Qanmazlar çərənləyirlər ki, guya mən Şekspirə oxşayıram... Mən heç onun ayaqqabılarının ipini də bağlamağa layiq deyiləm!..

*1827*
*1 yanvar*

...Özümü Vordsvorotla (Uilyam Vordsvorot (1770-1850), romantik ingilis şairi - **tərcm.**) təxəyyül cəhətdən heç bir halda müqayisə etmirəm: mükəmməl təbii incəlik yalnız ona məxsusdu. Amma mən də buludlarda qəsrləri, buxar maşınının tüstüsündə cinləri və daş kömürün alovları içində gözəl Persepolu (Persopol - fars şəhəri, Əhəmənilər imperiyasının paytaxtı olub, e.ə. 330-cu ildə Makedoniyalı İsgəndər tərəfindən yandırılaraq dağıdılıb. - **tərc.**) heç kimdən pis görmürəm. Bütün ömrüm belə yuxuları aşkarda görməklə keçdi. Amma bununla fəxr eləmirəm. Bəzən Russonun özünə müraciətlə dediklərini yada salmaq lazımdı: "Tais-toi, Jean-Jacques, car on ne t'entend pas! - (fran.)" ("Jan Jak, sussana! Axı səni başa düşmürlər!")

*15 fevral*

Baron fon Hötedən məktub aldım; onu mənə oxudular, hərçənd almanca bilirəm amma yazı şriftlərini unutmuşam. Özümə belə bir qayda tətbiq etmişəm ki, xaricdə yaşayan qələm dostlarımdan aldığım məktubları nadir hallarda oxuyum və onlara heç vaxt cavab yazmayım. Axı bundan kompliment oyunbazlığından başqa heç nə hasil olmur. Ancaq Höte - bu, başqa məsələdi. Çox gözəl insandı. O, eyni zamanda həm Ariostodu və həm də Almaniya üçün, demək olar ki, Volterdi. Otuz il bundan öncə kim deyə bilərdi ki, mən "Gets fon Berlihingen"in müəllifiylə yazışacam və onunla az qala ayaqlaşacam? Başıma gələn yüzlərlə macəradan kim xəbər verə bilərdi axı?

*6 mart*

... Teatra getmişdik. Con Kembelin qardaşı Benedikti oynayırdı. Xarici görünüşü gözəldi və yaxşı aktyordu, amma elə də üstün deyil. Həmişə məhz oynadığını duyursan. Gücü çatmadığı Benediktimə girişməyə onu şeytan yoldan çıxarıb! Onun rol haqda zərrə də anlayışı yoxdu. Xüsusilə də Benediktin az qala faciəvi bir ucalığa qalxdığı şahzadə və Klavdio ilə savaş səhnəsində özünü necə aparmalı olduğunu bilmir. Lap çoxdan qoca Tom Kinq yüngülxasiyyətlikdən necə qurtulmağı və özünü hissiyyatlı bir insan kimi necə mükəmməl

göstərməyi nümayiş etdirmişdi. Xüsusilə, o, şahzadə və Klavdionun ölçüyəsığmaz, həm də düşük şənliyini pozduğu "ədalətsiz davada əsil şücaət olmaz" kimi yüksək əxlaqi hissləri sərt ifadə etməsi ilə yadımda qalıb...

### 7 may

Qofman haqda məqaləni birtəhər bitirdim. O xoşuma gəlmir, amma əvvəl narazı qaldığım şeylərin sonradan uğur qazandığı çox olub. Əsərlərimiz öz zəhləmizi ona görə tökür ki, eyni düşüncələri beynimizdə dəfələrlə götür-qoy edirik. İlk dəfə rast gələnə isə gözəl bir yenilik kimi görünür. Kaş elə belə də olaydı. Bacarsam, həvəslə həmin zavallının köməyinə çataram, çünki mən özüm də zavallıyam.

### 8 may

... Qofman barədə yazdığım məqalələmdə düzəlişlər etdim, ancaq axıra çatdıra bilmədim. Defonun əsərləri haqda yazdığım məqaləni bitirdim. Onun əsas üstünlüyü qeyri-adi tərzdə həqiqətəuyğun yazmasındadı. Mən bunu missis Villin tarixçəsi timsalında göstərdim.

### 24 may

Ağlıma yaxşı bir fikir gəlib - balaca Conni Lokart üçün Şotlandiyanın keçmişinə aid "İngiltərə tarixindən hekayələr"ə bənzər şeylər yazmaq istəyirəm. Amma mən bu cür hekayələri Kroker kimi sadə yazmayacam. Yaxşı əminən ki, uşaqlar və aşağı sinfin oxucuları onların imkanlarına hesablanmış kitabları görməyə gözləri olmur, əksinə, böyüklər və təhsillilər üçün nəzərdə tutulmuş mürəkkəb əsərləri sevirlər. Müyəssər olsam, elə bir kitab yazacam ki, körpələr də başa düşəcək, gözlərinə sataşanda, böyüklər də oxumaq istəyəcəklər. Doğrudu, bundan ötrü üslubun sadəliyi lazımdı, bu isə mənə o qədər də xas olan bir şey deyil. Böyük və maraqlı olanlar sözlərdə deyil, fikirlərdə cəmlənir...

### 4 avqust

Yanıma general Yermolov təşrif buyurmuşdu. O, tanımadığım həkim Noks adlı birinin məktubuyla gəlmişdi. Əgər bu, həmin Vitsesimusdusa, onunla iyirmi beş il əvvəl görüşmüşük və bizimki tutmayıb. Əvəzində general Yermolovun adı xoşbəxtlikdən mənə tanışdı. Bu insan, ömrünün çiçəkləndiyi dövründə - otuz yaşdadı, gözəl, özünə inamlı və çılğındı; o, poeziyanın və incəsənətin bütün növlərinin ehtiraslı vurğunudu. Yermolov Moskva hadisəsində və bütün sonrakı mərhələlərdə iştirak edib, hərçənd, əlbəttə, o zaman çox gənc olub. O, Moskvanı Rastopçinin yandırmasına qəti şübhə etmir və deyirdi: fransızların hücumu öncəsi sakinlər şəhəri tərk edərkən şayiə yayılmışdı ki, Moskvanı məhv etmək üçün orada müəyyən adamlar saxlayıblar. Mən soruşdum ki, bəs nəyə görə birinci növbədə barıt anbarını yandırmayıblar? Cavab verdi ki, onun fikrincə, anbarın partladılması geri çəkilməkdə olan ruslar üçün təhlükəliymiş. Bu, inandırıcı görünmür. Rus kolonları Moskvadan kifayət qədər uzaqda idi və onlara ziyan dəyə bilməzdi. Mən ondan israrla Kutuzov əməliyyatının nəyə görə ləng getməsinin səbəblərini soruşanda, o, açıq etiraf etdi: ruslar fransızların geri çəkilmələrinə elə sevinib və elə təəccüb etmişdilər ki, qazanılmış üstünlüyün ölçüsünü dərhal anlaya bilməmişdilər...

### 4 oktyabr

Ömrüm boyu kifayət qədər gördüyüm, ən yüksək adlandırılan cəmiyyət indi məni ancaq əyləndirir, çünki yaşım və laqeydliyim sayəsində özümü onun bir hissəsi hesab eləmək vərdişimi yadırğamışam; məndə belə bir hiss yaranıb ki, artıq bu cəmiyyətdə iştirak etmirəm, yalnız kənar bir müşahidəçiyəm və mənim barəmdə rolumu yaxşı, ya pis oynadığımı deyə bilməzlər, çünki, ümumiyyətlə oynamıram. Haqqımda düşünülənlərin zərrə qədər də fikrini çəkmirəm və başqalarının oyununu müşahidə etməyə kifayət qədər vaxtım var...

### 7 noyabr

Son günlər əqli və fiziki tələskənliyimin nəticələrinə görə keçirdiyim yaşantılardan sonra bu sabah sakitləşməyə başlamışam. Bir məqalə - yəni "Kuorterli revyu" üçün dekorativ bağçılıq haqda oçerk yazmağa girişmişəm. Kitab çatışmazlığına görə, tezliklə dirənib qaldım. Ancaq mən özümə istirahət rəva görmürdüm, fikirlərimə sərbəstlik verərək dərhal "Kenonqeyt xronikası"nın ikinci seriyasına başladım, çünki birinci uğur qazanmışdı. İkinci dəfə baş vurub, qoca bir səfeh kimi ötən dönəmləri xatırlayıb çox kövrəldim, bütün gecəni fasiləsiz şeir oxumaqdan və göz yaşları tökməkdən başqa nəhayət ki, heç nəyə yaramırdım. Bu, kədərli işdi. Qəbirlər öz ölülərini geri qaytarır, zaman otuz il əvvələ yuvarlanır, tamamilə əhvalımı pozur. Yetər artıq! Mən təqib olunan maral kimi özümü, təbii saflığımı itirirəm, amansız və təhlükəli oluram. Amma bu barədə yaxşı bir hekayət danışmaq olar və qorxuram gözəl günlərin birində o danışılacaq! Və o zaman, heç şübhəsiz, iki-üç illik yuxuda, aşkarda gördüklərim əbədiləşəcək. Amma ölülər ağrı hiss etmirlər. (...)

### 7 dekabr

...Tipik bir xüsusiyyətim var: məsələn, eyni zamanda mütaliə ilə məşğul olanda, öz əsərim üzərində daha yaxşı işləyirəm, dəqiq desək, düşünə bilirəm. Görəndə ki, pis yazıram və dalana dirənmişəm, yüngül bir kitab, - roman və ya buna bənzər nəsə götürürəm, sadəcə azacıq mütaliə etməyim qalır ki, bütün çətinliklərim aradan qalxsın, yenidən işləməyə hazır olum. Başımdan eyni anda iki düşüncə axını keçməlidi; ola bilər, qadınların əyirmək və toxumaq kimi kifayət qədər yüngül məşğuliyyətlərinə oxşar işlər şüura sabitlik, sarsılmazlıq bəxş edir, düşüncənin yayınmağına mane olur, beləliklə, ağlın daha dərin imkanlarına şərait yaratmağa xidmət edir. "Nə edirsənsə bir dəfəyə et" sözlərini eşidəndə, həmişə məni gülmək tutur. Bütün ömrüm boyu onlarla işi bir dəfəyə görmüşəm...

### 12 dekabr

Yenidən ədəbi reputasiyamın düşməsinin mümkünlüyü haqda düşünüb-daşındım. Tənqidə və tərifə o qədər biganəyəm ki, məni özümə qapılmağa vadar edə biləcək böyük uğurlarım heç vaxt təkəbbür doğurub gözümü kor etməyib. Buna görə, mənim hisslərimə gəlincə, bu hadisələri sarsılmaz dəyanətimlə qarşılamaq iqtidarındayam. Əgər ədəbi reputasiya hansısa bir üstünlük gətirirsə, onsuz da buna malikəm, amma onun itkisi məni zərrə də narahat etmir.

Mənim tac daşıdığımı heç kim inkar edə bilməz. Üzərimə götürdüyüm işgüzar öhdəliklərim baxımından məhz indi işi bir kənara qoymağa məcbur olmağım tamamilə yersizdi və bu, ədəbi fəaliyyətimi dayandırmamağımın yeganə səbəbidi; uzaq başı bu uğursuz işə - romanlar yazmağa davam etməyəcəm. Qınaqlara səbəb olan yazılarımı geri götürəcəm, amma bu, o demək deyil ki, onların üzünü yenidən köçürəcəm. (...)

Fiv sakini olan iki nəfər alim yanıma gəlmişdi və uzun məsləhətləşmədən, müzakirədən sonra getdilər. Onlar işdə fasilə verməyimi qətiyyətlə pislədilər, bunun tam uğursuzluğa gətirib çıxaracağını dedilər. Mən inad etdiyim halda üzləşəcəyim çətinlik və təhlükələr barədə öz düşündüklərimi söylədim, izah etdim ki, kütlə boşluğu dərk eləyənəcən, altı aya və ya hətta bir ilə də olsa, fəaliyyətimi bərpa edə bilərəm. Onlar, bildirdilər: bu müddət ərzində gözləntilər o qədər artıb çoxalacaq ki, heç bir Tanrı bəndəsi camaatı razı sala bilməyəcək. Cıdırda irəli sıçrayan, amma öz üstünlüyünü axıracan saxlaya bilməyən bir at kimi məni tamamilə sıxışdıra biləcək şeylər haqda bu alimlərin susduqlarını da nəzərə alamaq lazımdı. Axırda qərara aldıq ki, indi yazdığım kitabı başladığım kimi də davam etdirim və təkcə onların etirazlarını bildirdikləri girişdəki bəzi yerləri çıxım. İzləyici zövqünün gözəl örnəyidi bu və sözsüz, yaxşısı budu, onlarla razılaşıb, güzəştə gedəsən. Ancaq mənim mövqeyimin - düz, onlarınkının isə səhv olduğuna tam əmin deyiləm, təkrar edirəm, tam əmin deyiləm. Bununla belə, indiki şəraitdə onların həddən artıq tənqidi mövqedə olmalarından qorxmuram, hər ikisi sağlam düşüncəlidi, kimisə tənqid atəşinə tutmaqla nəsə qazanmağa meyilli deyillər...

### 28 dekabr

... Mənim yeganə məharətim, darıxdırıcı təfərrüatlardan maraqlı, heyranedici süjetlər tapıb çıxarmağımdadı. Darıxdırıcı və maraqsız kimi tanınan əsərləri eşələdikdə, o qədər xoşagələn və ibrətamiz şeylər rastıma çıxır ki. Siz mənə fakt verin, təxəyyülüm kifayət qədərdi...

### 1828
### 1 yanvar

Mən 1825-ci il 20 noyabr tarixindən, yəni artıq iki il, iki aydı gündəlik tuturam. Bundan ağlımın artdığını və ya yaxşı nəsə əldə etdiyimi deyə bilmərəm, ancaq əmin olmuşam ki, bir dəfə verdiyim qərarın üstündə durmaq qabiliyyətinə yiyələnmişəm. Görünür, burada sevinməli bir şey yoxdu; deyəsən, bu, göstərir ki, mən daha çox metodiki adamam, nəinki, orijinal; məndə artıq müntəzəm yazdıqlarımla uyuşmayan canlı fantaziyalar yoxdu. Ancaq, əgər məsələ məhz bundan ibarətdisə, ona sevinməliyəm ki, birini itirmişəmsə, heç olmasa o birini tapmışam.

### 14 yanvar

Kuperin yeni "Qırmızı dəniz quldurı" romanını oxudum; hadisələr sırf okeanda cərəyan edir. Dənizçilik terminlərinin artıqlığı hər şeyə kölgə salır. Ancaq oxucu təkcə təsvirlə maraqlanırsa, onlar başa düşmədikləri çox şeyə göz yummalı olacaqlar. (...) Kuper böyük istedad sahibidi, insan qəlbinin mahir bilicisidi və onu əks etdirməyi bacarandı. Amma görünür onun da ağlına başqalarının düşündükləri gəlir. Dor ağacının gözəl forması və yelkən iplərinin naxışları göy üzünün fonunda kifayət qədər tez-tez rast gəlinən şeylərdi.

### 28 yanvar

...Kuperin "Çöl" romanını oxudum və məncə, bu əsər, bir dəfə də olsun sahilə çıxılmayan, hadisələri tam dərk etmək üçün isə kifayət qədər dəniz terminlərindən xəbərdar olmağın lazım gəldiyi "Qırmızı dəniz quldurı"ndan yaxşıdı.

### 5 aprel

Biz qüdrətli sehrbazın məzarını ziyarətə getmişdik. Qəbirdaşı Birinci İakov dönəmində zövqsüz şəkildə düzəldilib, amma buralar necə də füsunkardı! Ətrafda unudulmuş, bu gün tanınmayan nəsillərə aid əzəmətli abidələr var. Ancaq sən təkcə Şekspirin abidəsini görürsən, başqası heç yadına da düşmür. Ətrafda hər şey Şekspirə aiddi... (...)

*Tərcümə etdi:* ***Zahid Sarıtorpaq***

